

***Hər bir cəmiyyətdə insan hüquqlarına hörmət , əslində, saf, təmiz, sevimli, günahsız varlıqlara -- uşaqlara münasibətdən başlayır. Məlumdur ki, uşaqlar fiziki və psixoloji cəhətdən müdafiəsiz olduqlarından onların xüsusi qayğı və münasibətə ehtiyacı var. Odur ki, uşaqların hüquqlarının qorunmasında birinci dərəcəli məsuliyyət ailənin üzərinə düşür.***

# Hamımız uşaqlar üçün gözəl bir dünya qurulmasına töhfələr verək

Bir körpənin dünyaya gəlişi təkcə onun ata-anasına deyil, nənə və babalarına, əmidayısına, bütün qohum-əqrəbaya sevinc gətirir. Körpə əzizlənə-əzizlənə böyüyür. Yeni Azərbaycan ailəsində yaxşı nə varsa, hamısı uşaq üçün, onun xoşbəxt gələcəyi üçündür.

Azərbaycanda uşaq siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndərin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr bu gün də uğurla davam etdirilir.

Ulu öndərin siyasi kursuna sadiqliyini bütün sahələrdə nümayiş etdirən Prezident İlham Əliyev tərəfindən uşaq hüquqlarının müdafiəsinə, sağlamlığına, təhsilinə, layiqli vətəndaş kimi hərtərəfli inkişafına yönələn siyasət yürüdülür, bu istiqamətdə uğurlu islahatlar aparılır. Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycan Respublikasında uşaqlara dövlət qayğısının gücləndirilməsi, uşaq problemlərinə vətəndaş cəmiyyəti qurumlarının diqqətinin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə 22 dekabr 2008-ci il tarixdə imzaladığı sərəncamla 2009-cu il ölkəmizdə "Uşaq ili" elan olunub. Xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olan uşaqlar xüsusilə, dövlətin diqqətindədir. Ölkəmizdə bir və ya hər iki valideyn qayğısından məhrum olan və internat müəssisələrində təhsil alan uşaqların sayı 1991-ci ildə 955 olubsa, bu rəqəm illər ərzində kəskin şəkildə dəyişməsinə baxmayaraq , 2017-ci ildə 639-a düşüb.

Uşaqların himayədarı Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi altında uşaqlarla bağlı davamlı olaraq həyata keçirilən layihə və proqramlar onların həyatında təsvirəgəlməz ölçüdə böyük rol oynayır. Hər bir uşağın qayğı ilə əhatə olunması Heydər Əliyev Fondunun əsas fəaliyyət prioritetlərindəndir.

Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" və bu kimi xeyli sayda layihələri uşaqlara təhsil, səhiyyə və digər sahələrdə dəstək və köməkdir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihələri çərçivəsində 100-lərlə körpələr evi, uşaq bağçası və internat məktəbi əsaslı təmir olunaraq yenidən qurulub.

Təsadüfi deyil ki, uşaqlara ali münasibət Azərbaycan Respublikasının Ailə Məcəlləsində də geniş əksini tapıb. Uşaqların qayğısına qalmaq , onları müdafiə etmək ailənin borcu olduğu burada bir daha vurğulanıb. Dövlət bu borcun necə yerinə yetirilməsinə daim nəzarət edir. Azərbaycan Respublikasında 1998-ci ildə BMT-nin uşaq hüquqları haqqında Konvensiyasını özündə əks etdirən "Uşaq hüquqları haqqında" Qanun qəbul edilmişdir. Bu qanun davamlı olaraq günün reallıqları və sosial tələblər, sifarişlər çərçivəsində əlavə və dəyişikliklərlə zənginləşdirilir.

Təəssüf ki, hazırda dünyada milyonlarla uşağın hüququ tapdalanır, onlar zorakılığa, şiddətə, aclığa-susuzluğa məruz qalırlar. Uşaqlar müharibələrin qurbanına çevrilir, öldürülür, valideynsiz qalır, qaçqın həyatı yaşamağa məcbur olurlar...

Eyni ilə Dağlıq Qarabağ münaqişəsinin gətirdiyi acıverici hadisələrdə olduğu kimi… Əfsuslar olsun ki, ölkəmizdə də torpaqlarımızın 20 faizinin mənfur Ermənistan tərəfindən işğalı nəticəsində öldürülən, həm də xüsusi amansızlıqla qətlə yetirilən, doğma yurdundan didərgin düşüb qaçqına, məcburi köçkünə çevrilən minlərlə uşaq var idi. Münaqişənin davam etdiyi 30 il ərzində bu qəbildən olan uşaqlar hər zaman dövlətimizin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Onların mənəvi, fiziki sağlamlığı, təhsilləri üçün hər cür şərait yaradılıb. Ən ümdəsi isə qaçqın və məcburi köçkün uşaqlar bu illər ərzində əmin idilər ki, Prezident İlham Əliyevin qətiyyətli siyasəti və qüdrətli ordumuzun şücaəti sayəsində tezliklə öz yurd-yuvalarına qayıdacaqlar və bir daha Azərbaycanda qaçqın, məcburi köçkün uşaqlar olmayacaq.

Məlum olduğu kimi, ölkəmizin əks -- hücum əməliyyatı ilə həyata keçirdiyi 44 günlük müharibədə də Azərbaycan uşaqları məhrumiyyətlərə məruz qaldılar. Təəssüf ki, işğalçı Ermənistan ordusunun və onun rəhbərliyinin vandalizm siyasəti nəticəsində cəbhə bölgəsindən xeyli uzaqda yerləşən bölgələrimizin dinc sakinləri olan onlarca günahsız körpə qadağan edilmiş silahlardan, raketlərdən atılan atəşlər, həmin bölgələrin bombalanması nəticəsində həyatını itirdi, valideynindən məhrum oldu. Bütün bunlar əlbəttə ki, dünyanın və insanlığın üzqarasıdır və uşaq qatilləri, cinayətkarlar mütləq ədalət qarşısında cavab verməlidirlər

Hazırda dünyada 1 milyard uşaq yoxsulluq, 240 milyon uşaq müharibə şəraiti, 575 milyon qız uşağı isə övlad ayrı-seçkiliyinin mövcud olduğu ölkələrdə yaşayır. Beynəlxalq "Save the Children" təşkilatının hesabatına görə, 1,2 milyard uşaq 3 riskdən birinin, bütövlükdə 20 ölkədə yaşayan 153 milyon uşaq sadalanan hər 3 risk faktorunun qurbanı olur.

Müharibə, aclıq, qorxu, ailəsizlik, təhsilsizlik və bunun fonunda böyüməyə çalışan 1 milyard uşaq! Sadə dillə desək, uşaqlığında bir dəfə də olsun, gəzintiyə çıxıb ən çox sevdiyi şokoladı yeməyən, ən çox arzuladığı oyuncağı əlinə ala bilməyən 1 milyard varlıq...

Əlbəttə, biz bütün bu faktları ürək ağrısı ilə qeyd edirik və dünya birliyini uşaqlarımız naminə sülhə, əmin-amanlığa dəvət edərkən, bu fidanlara qarşı hər növ zorakılığa son verməyə çağırırıq.

Sözümü böyük türk şairi Nazim Hikmətin bir məşhur şeirində qələmə aldığı arzularla bitirmək istəyirəm. Dünyanı bir günlük uşaqlara versək, raketlər yerinə çərpələnglər uçsa, qurğuşunlar yerinə dondurmalar ərisə, bombaların atıldığı yerdə çiçəklər bitsə, boşa çıxan ümidləri partlayan şarlar əvəz etsə, uşaqlar bombaların səsinə deyil, bu şarların səsinə diksinsə... dünya nə qədər gözəl, nə qədər xoşbəxt olar. Elə deyilmi?

***Jalə ƏLİYEVA,***
***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsi sədrinin müavini***